# Uşaq bağçasında Yeni il şənliyi



Bum qəsəbəsindəki uşaq bağçası rayonumuzdakı qabaqcıl məktəbəqədər tərbiyə müəssisələrindən biridir. Burada vaxtaşırı olaraq uşaqlarla əyləncəli tədbirlər keçirilir. Bu günlərdə keçirilən Yeni il şənliyi də uşaqların yaddaşında xoş xatirə kimi uzun müddət qalacaq.

Valideyinlərin də dəvət olunduğu bayram şənliyini bağçanın müdiri Rahilə Sədirova açmış, körpə fidanları, valideyinləri, təlim-tərbiyə ocağının işçilərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibətilə təbrik etmişdir.

Şaxta baba və qar qızın şənliyə qatılması körpələrin böyük sevincinə səbəb olmuşdur.

Körpələr "Şən yolka" "Əskər marşı" mahnılarını ifa etmişlər. Mariya Əzəmmədovanın, İnci Yaqubovanın, Leyla Quliyevanın, Yağmur Qaragözovanın, Yunis Hüseynlinin söylədikləri şeirlər alqışlarla qarşılanmışdır.

Balacalardan Aylin Hacıyeva, Yusif Rəşidov, Mariya Əzəmmədova, Fatimə Muradova və Emil Babayev "Turp" nağılı əsasında səhnəcik nümayiş etdirmişlər.

**Emin BARATOĞLU,**
**"Qəbələ" nin müxbir postunun rəhbəri.**

# İstehsalçılara subsidiya verilməsinə başlanılıb

Nazirlər Kabinetinin 2007-ci il tarixli 25 iyun 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi barədə Qaydalara" əsasən toxum və ting istehsalçılarına subsidiyanın verilməsinə başlanılıb. Bununla əlaqədar Kənd Təsərrüfatı Nazirliyinin müvafiq əmri ilə yaradılmış Ekspert Şurasında rayon/şəhər komissiyalarından daxil olmuş müraciətlərə baxılıb.

AZƏRTAC Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin məlumatına əsasən bildirir ki, Ekspert Şurasının qərarı ilə Qəbələ rayonu da daxil olmaqla respublikanın 34 rayonunun dövlət və özəl toxumçuluq və tinglik təsərrüfatlarına ümumilikdə 5 milyon 409 min 386 manat vəsait ödənilib.

## Bu il 99 tona yaxın quru tütün istehsal edilib

Builki mövsümdə Qəbələ rayonunun fermerləri 75 hektar sahədə tütün yetişdiriblər. Əkin sahələrinin 15 hektarına "Virciniya" növlü ətirli, 24 hektarına "Berley", 36 hektarına isə yerli tütün sortları əkilib. Artıq təsərrüfatlarda tütünün yığımı və qurudulması prosesi tam başa çatıb. Mövsüm ərzində sahələrdən 922 ton yaşıl tütün küləsi tədarük olunub. Fermerlər yetişdirdikləri tütün sortlarından 98 ton 736 kiloqram quru tütün istehsal ediblər.

## Ət istehsalı 3,0 faiz artaraq 463,6 min ton olub

Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-noyabr aylarında diri çəkidə ət istehsalı 3,0 faiz artaraq 463,6 min ton olub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC a verilən məlumata görə, bu dövr ərzində süd istehsalı 2,8 faiz artaraq 1899,0 min ton, yumurta istehsalı 1,9 faiz azalaraq 1534,7 milyon ədəd və yun istehsalı isə 1,2 faiz azalaraq 15,7 min ton təşkil edib.

2017-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 4,6 faiz, o cümlədən heyvandarlıq məhsullarının istehsalı 2,7 faiz, bitkiçilik məhsullarının istehsalı isə 6,6 faiz artıb.

## Məhsul istehsalı artıb

Cari ilin yanvar-noyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 6616,2 milyon manat təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC bildirilib ki, bu vəsaitin 3496,7 milyon manatı heyvandarlıq, 3119,5 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 4,6 faiz, o cümlədən heyvandarlıq məhsulları 2,7 faiz, bitkiçilik məhsulları isə 6,6 faiz artıb.

## 20 min 160 hektar sahəyə taxıl səpilib

Qəbələ rayonunun təsərrüfatlarında payızlıq dənlilərin səpini başa çatıb. Kampaniya dövründə fermerlər 20 min 160 hektar sahəyə toxum səpiblər. Taxıl əkinlərinin 15 min 560 hektarını buğda, 4 min 600 hektarını arpa sahələri təşkil edir. Payızlıq dənlilərin əkin sahəsi əvvəlki illə müqayisədə 60 hektar artıb.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən müxbirimizə bildiriblər ki, qəbələli fermerlər ötən ilki mövsümdə 20 min 100 hektar taxıl sahəsindən 64 min 464 ton məhsul tədarük ediblər. Hər hektardan orta hesabla 32,2 sentner məhsul götürülüb.

## Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin əsas məzmunu və 2019-cu ildə həyata keçiriləcək vergi islahatarının başlıca istiqamətləri

Vergi Məcəlləsinə dəyişikliklər 5 əsas istiqamət üzrə təsnifləşdirilir; bunlar sahibkarlığın dəstəklənməsi, vergidən yayınmanın və «kölgə iqtisadiyyatı»nın miqyasının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi kimi istiqamətləri əhatə edir.

Vergi qanunvericiliyinə edilmiş ən mühüm dəyişiklik kimi qeyri-neft sektorunun özəl bölməsində çalışan vətəndaşların əmək haqlarından tutulan vergilər üzrə vergi güzəştlərinin verilməsi qeyd etmək olar. Dəyişikliyə əsasən aylıq əməkhaqqı 8000 manata qədər olan vətəndaşlar üçün 7 il müddətində gəlir vergisi üzrə 100 faizlik güzəşt verilib, 8000-dən yuxarı olan məbləğdə muzdlu işlə əlaqədar gəlir əldə edən fiziki şəxslər üzrə isə gəlir vergisi 14 faiz həcmində müəyyənləşdirilib ki, bu da dövlətin sözügedən məsələdə çox böyük fiskal güzəştə getməsi deməkdir.

Vergi güzəştinin məqsədi əsas hədəf «kölgə iqtisadiyyatı»nın həcminin azalması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, iqtisadi fəallığın, xüsusilə qeyri-neft sektorunun özəl bölməsində işgüzar aktivliyin daha da canlanması və sürətləndirilməsi, vətəndaşların hüquqlarının daha dolğun şəkildə təmin edilməsidir.

Bundan başqa, Vergi Məcəlləsinə edilən dəyişikliklərdə pərakəndə ticarət və ictimai iaşə sektorunda dövriyyənin rəsmiləşdirilməsində ictimai nəzarətin gücləndirilməsi və bu işdə istehlakçıların stimullaşdırılması məqsədilə istehlakçılar tərəfindən belə obyektlərdə xərclənən vəsaitlərin ƏDV-sinin müəyyən hissəsinin istehlakçılara geri qaytarılması nəzərdə tutulur.

İstehlakçılar tərəfindən pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə (neft və qaz məhsulları istisna olmaqla) ödənilmiş ƏDV-nin nağdsız ödənişlərdə 15 faizi, nağd ödənişlərdə isə 10 faizi nəzarət-kassa aparatının çeki əsasında istehlakçılara geri qaytarılacaq. Bu qaydaların tətbiqi ilə bağlı əlavə olaraq prosedurları özündə əks etdirən qanunvericilik aktı qəbul olunacaq.

## Asteroid üzərində tədqiqat aparılacaq

*ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyinin (NASA) 2016-cı ilin sentyabrında kosmosa göndərdiyi "Osiris-Rex" zondu "Bennu" asteroidinə yaxınlaşıb və bu göy cisminin səthindən götürülən nümunələri Yerə çatdıracaq.*

*AZƏRTAC "Reuters" agentliyinə istinadla xəbər verir ki, Günəş sistemində ən böyük ulduzdan Yerə qədər eyni məsafədə olan bu asteroidin təxminən 166 ildən sonra planetimizlə toqquşacağı ehtimal olunur. Astronomlar "Bennu"-nun sərt qaya şəklində olan süxurlarının tərkibində müxtəlif mineralların olduğu qənaətindədir. Əvvəllər aparılmış tədqiqatlar göstərib ki, Yerlə toqquşan asteroid və meteoritlərin tərkibində həyat əlaməti olan su da olub. "Bennu"nun səthinin öyrənilməsi məhz bu baxımdan əhəmiyyətlidir.*

*Alimlərin hesablamalarına görə, bu asteroidin Yerlə toqquşacağı ehtimalı 2,700-də bir təşkil edir. NASA-nın kataloqunda "Bennu"-nun planetimizə 72 il yaxınlıqda olduğu da qeyd olunub.*


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə
2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir

**İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


## İTMİŞDİR

Qəbələ Peşə Məktəbi tərəfindən 2000-ci ildə **İsmayılov Nurlan Qəzənfər oğluna** verilmiş AO seriyalı 013840 nömrəli **traktorçu-maşinist vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 19 yanvar tarixli 13 nömrəli qərarı ilə Hacıalılı kənd sakini **Zeynalov Azad Şofiq oğluna** verilmiş JN seriyalı 0065 nömrəli (kod 40604018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Qurbanova Afət Nuralı qızına** verilmiş JN seriyalı 174 F nömrəli (kod 40616018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

DİN BDYPİ-nin Şəki regional Qeydiyyat-imtahan və Texniki Baxış Şöbəsi tərəfindən Uludağ kənd sakini **Bəkirov Seymur Bəkir oğluna** məxsus VAZ 21015 markalı 36 BK 783 dövlət nömrə nişanlı avtomaşına 03 oktyabr 2018-ci il tarixdə verilmiş AD seriyalı 306141 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Ağayev Əliş Ağa oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 338 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.